# Fəzail İsmayıl Böyükkişili-65



## Görmədim

Bu dünyaya gələn gündən,onda yaxşı gün görmədim,
Matəmə döndü hər günüm, əfsuz toy-düyünün görmədim,
Yoxmuş kiməsə ehtibar, eylədim, yəgin görmədim,
Özüm kimi bir insanı pərişan, qəmgin görmədim,
Mənim yatmış bəxtimdəsə, səbrlə, təmkin görmədim.

Hər tərəfim zinrik zülmət, hər tərəfim qatı duman,
Çağırıram harayıma, yetişməyir Sahib- Zaman,
Yer üzündə insanları şeytanlaşan gördüm aman,
Dünya malı toplamağa qarışıbdır başlar yaman,
Bir varlını, imkanlını da mənən zəngin görmədim.

Nənəm köçdü, babam köçdü, gördü kəndim ilk qəmimi,
Anam köçdü, atam köçdü, biçdilər ömür zəmimi,
Lərzə gəldim itirəndə Məhəmməd tək mərd əmimi,
Fələk aldı əldən özü, qəsdnən könül həmdəmimi,
Mən fələkdən o yanı da çox elə əngin görmədim.

Mən Allaha hey yalvardım, fələk vurdu, söz çatmadı,
Mənim yatmış bəxtimi o, insaf edib oyatmadı,
Al günəşə dönən təbim batmadı ki, heç batmadı,
Körpə uşaq, avam, qoca, məni kimlər aldatmadı,
Söz əməldən ayrı düşdü, sözün ahəngin görmədim.

Bu dünyaya göz açandan nələr, nələr görmüşəm mən,
Bu dünyadan nə söyləyim, onu mələr görmüşəm mən,
Soyuyanda can-cəsədim, kimlər bələr görmüşəm mən,
Fəryadımı dünya tutmaz, ərşi dələr görmüşəm mən,
Yağmalanan Vətənimin də milli cəngin görmədim.

Bu nakişi dünyanı gəl min çək-çevir, min də ara,
Allahı pul olanlarla, Allahıyla dostluq hara?
Dostlar məni yoxsul görüb qaçışdılar uzaqlara,
Qınamıram mən onları, kaş gəlməsin qınağlara,
Bircə yol, bir dostumun təmənnasız, zəngin görmədim.

Altmiş beşi haqlayıram, demə ömrüm boşa gedib,
Ömür adlı bir səlnaməm, tam yazılıb-başa yetib,
Dostum Allah, düşmən sayı milyardları çoxdan ötüb,
Mən dünyaya gələn gündən, gəlməmiş tək ömrüm bitib,
Mənə qarşı bir düşmənin, topun, tüfəngin görmədim.

Mən ki, göylər övladıyam, yerdə yerim yoxdur mənim,
Göylər ilə əlləşirəm, axtardığım haxdır mənim,
Öyündüyüm şairliyim, Allah verən baxtdır mənim,
Şairlikdə şahlıq taxtdım, bir əl çatmaz taxtdır mənim,
Mən tək uca taxtda çıxan şar zirəngin görmədim.

Demən, yenə yetim şair, yazıq-yazıq boynun burdu,
Ulduzları ötüb keçdim, bir önümdə Allah durdu,
Məni vurmaq istəyəni, məndən qabaq Allah vurdu,
Allah, Allah dünyagirlər nə alaçiy, nə cır-xırdı,
Onlar it tək gəbərdilər, boğulmuş rəngin görmədim.

Haqq-hesabı bilməyənə kəsilmişən haqdan qənim,
Dil açandan riyazidir təfəkkürüm, zəkam mənim,
Sədəfsus ki, təbabətdə işləmədi düham mənim,
Yüz minlərlə şəfasıza yetişmədi şəfam mənim,
Qəssabların, tüllabların çıxardan əngin görmədim.

"Zabur", "Tövrat", "İncil", "Quran" hamısı mənəm - söyləyirəm,
Mən onları ayə, ayə açır, təfsir eyləyirəm,
Fəzailəm fəzlim ilə, bu dünyanı neyləyirəm,
O dünyadan bu dünyanın başına kül ələyirəm,
Gözəllərə məftun oldum, heyif gəşəngin görmədim.

## Əziz atam

Sən köçəndən bu fənada arxasızam, əziz atam,
Sənin kamil ömrünü mən gərək yazam, əziz atam!

Sənə doğru can atıram, fəqət sənə yetməyirəm,
Yazı yazan belə yazıb, necə pozam əziz atam?!

Ərşi, gürşü titrədirəm, Allah verən fitrətimlə,
Nə yazığam, atasızam, anasızam, əziz atam!

Səndən sonra Yaradanın ən sevimli bəndəsiyəm,
Qeyrətimdir, namusumdur məsum cəzam, əziz atam!

Dünya varı yığmaq üçün işləməyir başım şükür,
Al günəşəm, hilal ayam, bahar, yazam, əziz atam!

Sən bir ümman, mən bir damla, səni necə vəsf eləyim?!
Sən Türk-Azər, mənsə tənha Türk Oğuzam, əziz atam!

Qeyri Türklər, Türk Oğuzu anlamayır axı neyçün???
Taleyimmi nəs gətirib, bumu qəzam, əziz atam?!

Türk bəşərin əcdadıdır, nə ingilis, nə fransız,
Yaponnan da, almannan da qüsursuzam, əziz atam!

Qızıl gül tək ürəyim var, behiştən də ətirlidir,
Gülüstanı-İrəndədir yerim, fəzam, əziz atam!

Məndə Yusif gözəlliyi, mən də İsa nəfəsi var,
Suleymandan hökmü güclü, ömrü azam, əziz atam!

İbrahim də, İsmayıl da, ən istəkli peyğəmbərlər,
Məhəmmədi-Əmbiya tək xoş avazam, əziz atam!

Qoy kor olsun o gözlər ki, istəməyir birliyimi,
Vətənimdə zülmət sökən dan ulduzam, əziz atam!

Mayan halal, südün halal, halalığın cəmi idin,
Savalanın, Şah dağınam, Kül-Arazam, əziz atam!

Məndə mənim sən olmusan, sənə mənim canım qurban,
Vətən kama yetməyincə bimurazam, əziz atam!

Təbrizimi paytaxt seçib, olsam Bütöv Azərbaycan,
Qəbrin üstə can da versəm, kefi sazam, əziz atam!

Fəzailin fəzlin ilə Turanını quranındır,
Turan ilə sinədəftər tən-tarazam, əziz atam!

## Qurban olum mən

Qeybdən nur kimi çağlayan Anam,
O nurlu qəbrinə qurban olum mən.
Ərzi məhvərində saxlayan Anam,
Təhrinə, töhrünə qurban olum mən.

Hamı getsə sən getməzdin əksimə,
Sevincdən sığmazdı qəlbim köksümə,
Sənsiz qara bəxtim düşüb tilsimə,
Cəbirinə, cövrünə, qurban olum mən.

Saysız ilmələrdən incə nəxs etdin,
Sən məni cahana şair bəxş etdin,
Haqqın dərgahına üzü ağ getdin,
Zənninə, səbrinə qurban olum mən.

İndi kimsəsizəm dərdli vətəndə,
Elə özü boyda dərddi vətən də,
Cəhənnəm odunda yanıram mən də,
O behişt ətrinə qurban olum mən.

Sənsiz məğrur Atam yetim qalıbdı,
Elə bil dünyada heç kim qalıbdı,
Qəbrin səmtə bir cığır da salıbdı,
Eşqinə, qədrinə qurban olum mən.

Gözlərin qəməyə dirənən zaman,
İtkinə can dedi, can Azərbaycan,
Şəhadət gətirib tapşıranda can,
İmanlı sətrinə qurban olum mən.

Fəzailəm qənimimə qənimsən,
Toy-düyünüm əbədi ağ günümsən,
Bu dünyamda, o dünyamda mənimsən,
Tükənməz xətrinə qurban olum mən.
Hilal ay bədrinə qurban olum mən,
Bu ülvi şeirinə qurban olum mən!

## Gəzərsən məni

Yamanca keçmişəm dünya cənginə,
Yaxana əl çatmaz, çırpam ənginə,
Quyruq bulayansan daim zənginə,
Yoxsulam asarsan, kəsərsən məni.
Öldürüb çıraqla gəzərsən məni.

Məsum bir körpə tək boynuna düşdüm,
Göz açdım cəhənnəm qoynuna düşdüm,
Olmazın küy-kələk oynuna düşdüm.
Doğruyam, tapdayıb əzərsən məni.
Öldürüb çıraqla gəzərsən məni.

Xoşuma gəlməyən başıma gələr,
Nə bəlan varsa da qarşıma gələr,
Axırda kəfənlə bürmələr, bələr,
Çox sağ ol, nə gözəl bəzərsən məni,
Öldürüb çıraqla gəzərsən məni.

Verdin kef-damağı, verdin əclafa,
Duymadın mən kiməm kim, ay binəva,
Allahlı bəndəyəm çəkirəm cəfa,
Bərk sıxır məngənəm, üzərsən məni,
Öldürüb çıraqla gəzərsən məni.

Səni dağıdandı dostun, həmdəmin,
Özüsən usdadın, daha nə qəmin...
Dərdinə loğmanam, mənəm məlhəmin,
Yarana, xorana süzərsən məni,
Öldürüb çıraqla gəzərsən məni.

Fəzail sel kimi coşar, çağlayar,
Səni murdarlardan yuyar, carlayar,
Sonra günəşdən də ötə parlayar,
Sanarsan ən nurlu əsər sən məni!
Öldürüb çıraqla gəzərsən məni.

## Gülüm

Bu nə görkəm, bu nə qamət,
Seçilmirsən güldən gülüm.
Vallah səni qaçırardım,
Utanmasam eldən gülüm.

Kimə açım yar dərdimi?!-
Xəyal, bəhrə bar verdimi?
Məcnunluq şad xəbərdimi?
Yığılmıram çöldən gülüm.

Çoxalsa da gəlib-gedən,
Az tapılar qəlbən sevən,
Öz insafın o sən, bu mən,
Məhəbbəti böl tən, gülüm.

19-22 aprel tarixində Salyan rayon
von Təhsil Şöbəsi və Azərbaycan Təh-